# Qərbi azərbaycanlı məşhur əməkdar jurnalist, dövlət xadimi İrəvanda necə güllələndi...

**Qərbi Azərbaycan tarixən böyük şəxsiyyətlərin doğulub boya-başa çatdığı yurd yerlərimizdən biridir. Bu əzəli Azərbaycan torpağında minlərlə ziyalı, elm-mədəniyyət, dövlət xadimi, ədəbiyyat, sənət adamları yetişib. Biz vaxtaşırı olaraq həmin şəxsiyyətləri Azərbaycan xalqının yaddaşına qaytarmaq üçün silsilə yazılar hazırlayırıq. İndiyə qədər bu silsilədən xeyli sayda görkəmli irəvanlı barədə danışmışıq.**

"İrəvanda izim qaldı" rubrikasında növbəti yazımız 1928-ci ildə İrəvan qəzasının Aşağı Necili kəndində anadan olan Amasiya rayonu Partiya Komitəsinin birinci katibi, Ermənistan KP MK-nın üzvü, Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin sədr müavini, Ermənistan SSR Ali Sovetinin deputatı (VIII-X çağırış), "Sovet Ermənistanı" qəzetinin baş redaktoru, Ermənistan SSR-in əməkdar jurnalisti Məhərrəm Bayramovdan bəhs edəcək.

Qərbi Azərbaycanın ictimai-siyasi, mədəni həyatında məxsusi rol oynayan şəxsiyyətlərdən biri olan Məhərrəm Bayramovun dünyadan köçü faciəli olub, o, erməni terrorunun qurbanı olub, özü də Sovetlərin hakimi-mütləq olduğu dövrdə. Bu barədə internet resurslarında gedən məlumata görə, Məhərrəm Bayramov 6 yanvar 1981-ci ildə İrəvanda "Polyak" ləqəbli şəxs tərəfindən güllələnərək qətlə yetirilib. Göründüyü kimi, ölümü bu şəkildə faciəli olub. Yüksək vəzifələrə qalxıb, sonda erməni terroruna tuş gəlib.

Məhərrəm Bağır oğlu Bayramov 13 may 1928-ci ildə İrəvan yaxınlığındakı Uluxanlı (Masis) rayonunun Aşağı Necili kəndində doğulub. Burada yeddiillik kənd məktəbini bitirdikdən sonra təhsilini İrəvan pedaqoji məktəbində davam etdirib və doğulduğu kənddə bir il müəllim işləyib.



Aldığı təhsillə kifayətlənməyən və təhsilini davam etdirməkdə israrlı olan qəhrəmanımız 1947-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olunub, 1952-ci ildə buranı bitirdikdən sonra Azərbaycan LKKİ MK-da təlimatçı kimi fəaliyyət göstərib. Onun barəsində internet resurslarında yer alan məlumata görə, iki il Bakıda işlədikdən sonra 1954-cü ildə İrəvana qayıdır və burada Ermənistan LKGİ MK-da təlimatçı işləyir. Savadı, dünyagörüşü, bacarığı onu yavaş-yavaş ucaldır, yeni vəzifələrə aparırdı. Belə ki, o, 1955-ci ildə Ermənistan KP MK təlimçisi vəzifəsinə yüksəlir.

Məlumatlara görə, Məhərrəm Bayramov 1964-1966-cı illərdə Ararat (Vedi) rayon komitəsinin katibi, 1966-1969-cu illərdə "Sovet Ermənistanı" qəzetinin redaktor müavini vəzifəsində işləyir.

O, 1969-cu ildən 1974-cü ilə qədər Amasiya rayon Partiya Komitəsinin birinci katibi, 1974-cü ildən ömrünün sonuna qədər "Sovet Ermənistanı" qəzetinin baş redaktoru işləyib. Məhərrəm Bayramov bu illərdə həm də Ermənistan SSR Ali Sovetinin deputatı və Rəyasət heyətinin müavini olub. O, "Ermənistan SSR əməkdar jurnalisti" fəxri adı, "Şərəf nişanı" ordeni və digər medallarla təltif olunub.

Qərbi Azərbaycanın həyatında mühüm rola malik olan bir şəxsiyyətin hansı səbəbdən qətlə yetirildiyi barədə hər hansı bir informasiya yoxdur, sadəcə Məhərrəm Bayramovun 6 yanvar 1981-ci ildə İrəvanda "Polyak" ləqəbli şəxs tərəfindən güllələnərək qətlə yetirildiyi yazılır.

Həmin o "Polyak"ın isə kimliyi açıqlanmır. M.Bayramovun faciəli ölümü ilə bağlı yerli qəzetdə nekroloq dərc edilib.

İctimai-siyasi, jurnalistik fəaliyyətlə yanaşı o həm də yazıçı və dramaturq, alim kimi tanınırdı.Yazıçı və dramaturqun ilk kitabı "Fırtınadan sonra" 1964-cü ildə İrəvanın "Haypethrat" nəşriyyatı tərəfindən nəşr edilib, "əziz və mehriban anası Fatmaya" ithaf edib. Kitaba "Peşmançılıq", "Pir kömək eləmədi", "Molla Qədirin toru", "Məni bağışla", "Carulla" və sair hekayələri, "Qeybulla" kiçik pyesi daxil edilib. Qeyd olunana görə, Məhərrəm Bayramov təcrübəli jurnalist və filoloq olub. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirən M. Bayramov 1969-cu ildə Bakıda "Şirvanzadə və Azərbaycan" mövzusunda namizədlik dissertasiyası müdafiə edib, filologiya elmləri namizədi olub. O, erməni-Azərbaycan ədəbi əlaqələri haqqında bir sıra kitab və məqalələrin müəllifi idi. Yazılanlara görə, Əkbər Yerevanlı ilə yanaşı Ermənistan SSR-də yaşayıb-yaratmış Azərbaycan yazıçı və şairlərinin əsərlərinin nəşr edildiyi "Ədəbi Ermənistan" məcmüəsinin tərtibaçılarından olub. "Fırtınadan sonra", "Məslək dostları. C.Məmmədquluzadə və A.Şirvanzadə" (C.Məmmədquluzadənin anadan olmasının 100 illiyi münasibəti ilə) (Yerevan: Ermənistan SSR "Bilik" Cəmiyyəti, 1966;) və "Aleksandr Şirvanzadə və Azərbaycan" (Yerevan: Hayastan, 1971" əsərlərinin müəllifi olub.

M.Bayramov kimi şəxsiyyətlərimizin həyat və fəaliyyətini, onların Ermənistan adlanan dövlətin inkişafında oynadıqları rolu vurğulamaqla o yerlərin tarixi Azərbaycan torpaqları, oranın yerli sakinlərinin Azərbaycan türkləri olduğunu bir daha yada salmış, haylara xatırlatmış oluruq. Biz həyatımızdan, taleyimizdən, başlıcası isə tariximizdən 70 illik Sovet dövrünü silib ata bilmərik, çünki bu illərdə bizim saysız böyük şəxsiyyətlərimiz, elm, dövlət, mədəniyyət, ədəbiyyat xadimlərimiz yetişib. Ermənistanın həyata keçirdiyi şovinst siyasətə sinə gərən Azərbaycan övladları Qərbi Azərbaycanda böyük epopeyalar yaradıblar. Sovet illərində bir neçə azərbaycanlı erməni şovinstlərinin içində yüksək vəzifələrdə fəaliyyət göstərərək Azərbayan xalqına xidmət ediblər. Bu gün Ermənistan adlanan ölkənin hər səhifəsində Azərbaycan xalqının silinməz izi var, çünki o torpaqlar bizim əzəli torpaqlarımızdır...

*İradə SARIYEVA*